WEAPONS

Proliferation

Agreement Between
the UNITED STATES OF AMERICA
and AZERBAIJAN

Signed at Washington September 28, 1999

and

Protocol Amending the Agreement

Signed at Baku December 29, 2011

NOTE BY THE DEPARTMENT OF STATE

Pursuant to Public Law 89—497, approved July 8, 1966 (80 Stat. 271; 1 U.S.C. 113)—

". . .the Treaties and Other International Acts Series issued under the authority of the Secretary of State shall be competent evidence . . . of the treaties, international agreements other than treaties, and proclamations by the President of such treaties and international agreements other than treaties, as the case may be, therein contained, in all the courts of law and equity and of maritime jurisdiction, and in all the tribunals and public offices of the United States, and of the several States, without any further proof or authentication thereof."

AZERBAIJAN

Weapons: Proliferation

Agreement signed at Washington
September 28, 1999;
Entered into force May 7, 2003.
And protocol amending the agreement.
Signed at Baku December 29, 2011;
Entered into force May 24, 2012.

AGREEMENT
BETWEEN
THE GOVERNMENT OF THE UNITED STATES OF AMERICA
AND
THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN
CONCERNING COOPERATION IN THE AREA OF COUNTERPROLIFERATION OF WEAPONS OF MASS DESTRUCTION AND DEFENSE ACTIVITIES

The Government of the United States of America and the Government of the Republic of Azerbaijan, hereinafter referred to as the Parties,

With a view to countering the proliferation of weapons of mass destruction, and technology, materials, and expertise related to such weapons; and

Desiring to prevent the unauthorized transfer, including transit and transportation of nuclear, biological, and chemical weapons and related materials;

Have agreed as follows:

ARTICLE I

Pursuant to the terms of this Agreement, the Government of the United States of America may assist the Government of the Republic of Azerbaijan, through the provision or loan of equipment, supplies, materials, technology, training, or services, in achieving the following objectives:

a. Countering the proliferation of weapons of mass destruction and of technology, materials, and expertise related to such weapons;

b. Preventing unauthorized transfer, including transit and transportation, of nuclear, biological, or chemical weapons and related materials;

c. Such other activities as are mutually agreed.

ARTICLE II

Each Party shall designate an Executive Agent to implement this Agreement. For the Government of the United States of America, the Executive Agent shall be the Department of Defense. For the Government of the Republic of Azerbaijan, the Executive Agent shall be the Cabinet of Ministers.

ARTICLE III

1. The Parties, through their Executive Agents, may enter into implementing agreements or arrangements as appropriate to accomplish the objectives set forth in Article I of this Agreement.

2. In case of any inconsistency between this Agreement and any implementing agreements or arrangements, the provisions of this Agreement shall prevail.

ARTICLE IV

Any disagreements or disputes concerning the interpretation or implementation of this Agreement shall be resolved solely through consultation by the Parties, and shall not be referred to any third party, court, or tribunal.

ARTICLE V

The terms of this Agreement shall apply to all equipment, supplies, materials, technology, training, or services provided by the Government of the United States of America in accordance with this Agreement or implementing agreements or arrangements, and to all related activities and personnel.

ARTICLE VI

1. The Government of the Republic of Azerbaijan shall facilitate the entry and exit of employees of the Government of the United States of America and contractor personnel of the Government of the United States of America into and out of the territory of the Republic of Azerbaijan for the purpose of carrying out activities in accordance with this Agreement.

2. Aircraft and vessels, other than regularly scheduled commercial aircraft and vessels, used by the United States of America in connection with activities pursuant to this Agreement in the Republic of Azerbaijan shall be free of customs charges, landing and parking fees, port charges, tolls, and any other charges assessed within the territory of the Republic of Azerbaijan. Aircraft and vessels owned or operated by the United States of America in connection with activities pursuant to this Agreement shall be free of customs inspections in the Republic of Azerbaijan.

3. If an aircraft other than a regularly scheduled commercial aircraft is used by the Government of the United States of America for transportation to the Republic of Azerbaijan, its flight plan shall be filed in accordance with the procedures of the International Civil Aviation

Organization applicable to civil aircraft, including in the remarks section of the flight plan a confirmation that the appropriate clearance has been obtained.

ARTICLE VII

Unless the written consent of the Government of the United States of America has first been obtained, the Government of the Republic of Azerbaijan shall not transfer title to, or possession of, any equipment, supplies, materials, technology, training, or services provided by the Government of the United States of America pursuant to this Agreement to any entity, other than an officer, employee or agent of a Party to this Agreement and shall not permit the use of such equipment, supplies, material, technology, training, or services for purposes other than those for which it has been furnished. The Government of the Republic of Azerbaijan shall take all reasonable measures within its power to ensure the security of equipment, supplies, materials, technology, training, or services provided by the Government of the United States of America pursuant to this Agreement and shall protect them against seizure or conversion.

ARTICLE VIII

1. The Government of the Republic of Azerbaijan shall, in respect of legal proceedings and claims, other than contractual claims, hold harmless and indemnify the Government of the United States of America and its personnel, contractors, and contractors' personnel, against damages to property, or death or injury to any persons in the Republic of Azerbaijan, arising out of activities under this Agreement.

2. The provisions of this Article shall not prevent the Parties from providing compensation in accordance with their national laws.

ARTICLE IX

The activities of the Government of the United States of America under this Agreement are subject to the availability of appropriated funds.

ARTICLE X

Upon request of the Government of the United States of America, military and civilian employees of the Government of the United States of America present in the territory of the Republic of Azerbaijan for activities related to this Agreement shall be accorded privileges and immunities equivalent to those accorded administrative and technical staff personnel in accordance with the Vienna Convention on Diplomatic Relations of April 18, 1961.

ARTICLE XI

1. The Government of the United States of America, its personnel, contractors, and contractors' personnel shall not be liable, in connection with activities under this Agreement, to pay any taxes, customs duties, or similar charges assessed within the territory of the Republic of Azerbaijan.

2. The Government of the United States of America, its personnel, contractors, and contractors' personnel may import into, and export out of, the Republic of Azerbaijan any equipment, supplies, materials, technology, training, or services required to implement this Agreement. Such importation and exportation shall not be subject to licensing or other restrictions, customs, duties, taxes, or any other charges assessed within the territory of the Republic of Azerbaijan.

ARTICLE XII

In the event that a Party awards contracts for the acquisition of articles and services, including construction, to implement this Agreement, such contracts shall be awarded in accordance with the laws and regulations of that Party. Acquisition of articles and services in the Republic of Azerbaijan by or on behalf of the Government of the United States of America in implementing this Agreement shall not be subject to any taxes, customs duties, or similar charges assessed within the territory of the Republic of Azerbaijan.

ARTICLE XIII

Upon written request provided thirty days in advance, representatives of the Government of the United States of America shall have the right during the period of this Agreement and for three years thereafter, to examine the use of any equipment, supplies, materials, technology, training, or services provided by the Government of the United States of America in accordance with this Agreement, at sites of their location or use, and shall have the right to audit and examine all records or documentation related to the use of materials or services provided in accordance with this Agreement.

ARTICLE XIV

This Agreement shall enter into force upon the date on which the Parties exchange diplomatic notes confirming the completion by each Party of all applicable internal procedures required for the entry into force of this Agreement, and shall remain in force for seven years. This Agreement may be amended or extended by the written agreement of the Parties and may be terminated by either Party upon ninety days written notification to the other Party of its intention to do so. Notwithstanding the termination of this Agreement or the implementing agreements, the obligations of the Government of the Republic of Azerbaijan in accordance with Articles VII and

VIII of this Agreement shall continue to apply without respect to time, unless otherwise agreed in writing by the Parties.

DONE at Washington, D.C. this 28th day of September, 1999, in duplicate, in the English and Azerbaijani languages, both texts equally authentic.

FOR THE GOVERNMENT OF
THE UNITED STATES OF AMERICA:



FOR THE GOVERNMENT OF
THE REPUBLIC OF AZERBAIJAN:



Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında
Saziş

Burada və irəlidə Tərəflər adlandırılan Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

Kütləvi qırğın silahlarının yayılmasının habelə, bu növ silahlardan olan texnologiyaların, materialların və ekspertizaların qarşısının alınması məqsədi ilə,

Nüvə, bioloji, kimyəvi silahların və bunlara aid olan materialların tranziti və daşınması daxil olmaqla, qeyri-qanuni yerdəyişmələrinin qarşısının alınmasını arzu edərək,

Aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Bu Sazişin şərtlərinə müvafiq olaraq, Amerika Birləşmiş Ştatları Hökuməti aşağıdakı məqsədlərə nail olmaq üçün avadanlıqların, ehtiyatların, materialların, texnologiyaların, təlim və yaxud xidmətlərin təmin edilməsi və icarəyə verilməsi vasitəsi ilə Azərbaycan Respublikası Hökumətinə yardım göstərə bilər:

(a) kütləvi qırğın silahlarının və belə silahlara aid olan texnologiyaların, materialların və ekspertizanın yayılmasının qarşısının alınması;

(b) tranzit və nüvə, bioloji və ya kimyəvi silahların və onlara aid olan materialların daşınması və tranziti daxil olmaqla, qeyri-qanuni transferlərin qarşısının alınması;

(c) qarşılıqlı razılıq üzrə digər belə tədbirlər.

Maddə 2

Hər bir Tərəf bu Sazişin həyata keçirilməsi üçün İcraçı Agent təyin etməlidir. Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən İcraçı Agent Müdafiə Nazirliyi olacaq. Azərbaycan Respublikası Hökuməti tərəfindən İcraçı Agent Nazirlər Kabineti olacaq.

Maddə 3

1. Zərurət olduqda, Tərəflər öz İcraçı Agentləri vasitəsi ilə bu Sazişin 1-ci maddəsində əks olunan məqsədlərin əldə olunmasının həyata keçirilməsi üzrə sazişlər və ya razılaşmalar bağlaya bilərlər.

2. Bu Saziş və həyata keçirilmə üzrə digər saziş və razılaşmalar arasında hər hansı bir uyğunsuzluğun yarandığı təqdirdə, hazırki Saziş üstünlük təşkil edəcək.

Maddə 4

Bu Sazişin təfsiri və ya həyata keçirilməsinə aid olan hər hansı fikir ayrılıqları və ya mübahisələr müstəsna şəkildə Tərəflər arasında məsləhətləşmələr vasitəsilə nizamlanmalı və hər hansı bir üçüncü tərəfin, məhkəmə və ya tribunalın baxılmasına verilməməlidir.

Maddə 5

Bu Saziş və ya həyata keçirilmə üzrə sazişlərə uyğun olaraq, bu Sazişin şərtləri Amerika Birləşmiş Ştatlarının təqdim etdiyi bütün avadanlıqlara, ehtiyatlara, materiallara, texnologiyalara, təlim və ya xidmətlərə, və ona aid olan tədbirlərə və personala şamil ediləcəkdir.

Maddə 6

1. Azərbaycan Respublikası Hökuməti bu Sazişə uyğun olaraq tədbirlərin həyata keçirilməsi məqsədilə Amerika Birləşmiş Ştatları Hökumətinin əməkdaşlarına və Amerika Birləşmiş Ştatları Hökumətinin podratçı-işçilərinə Azərbaycan ərazisi hüdudlarına və hüdudlarından kənara gəliş və gedişi asanlaşdırılmalıdır.

2. Bu Sazişə uyğun olaraq, tədbirlərlə bağlı Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanda istifadə olunan təyyarə və gəmilər, müntəzəm kommersiya reyslərini həyata keçirən təyyarələr və gəmilərdən başqa, Azərbaycan ərazisində tutulan gömrük rüsumlarından, yerə enmə və dayanacaq üçün ödəmələrdən, liman ödənişlərindən, yığımlardan və istənilən digər rüsumlardan azad olunmalıdır. Amerika Birləşmiş Ştatlarına məxsus və yaxud bu Sazişə aid olan tədbirlərlə əlaqədar istifadə olunan təyyarələr Azərbaycanda gömrük baxışından azad olunmalıdır.

3. Müntəzəm kommersiya reysləri həyata keçirən təyyarələrdən başqa, digər təyyarələr Azərbaycana nəqletmə məqsədilə Amerika Birləşmiş Ştatları

tərəfindən istifadə olunarsa, uçuş planının qeydlər qrafasında müvafiq icazənin alınmasının təsdiqi daxil olmaqla, onların uçuş planı mülki təyyarələrə tətbiq olunan Beynəlxalq Mülki Aviasiya Təşkilatı proseduralarına uyğun olaraq tərtib edilməlidir.

Maddə 7

Amerika Birləşmiş Ştatlarının Hökümətinin yazılı razılığını almadan, Azərbaycan Respublikası Hökuməti Amerika Birləşmiş Ştatlarının Hökümətinin bu Sazişə müvafiq olaraq təqdim etdiyi hər hansı avadanlıq, ehtiyatlara, materiallara, texnologiyaya, təlimə və ya xidmətlərə aid olan mülkiyyət hüququnu və yaxud sahibkarlığı bu Saziş Tərəfinin əməkdaşı, işçisi və ya agentindən başqa, istənilən hüquqi şəxsə verə bilməz və bu avadanlığın, təchizatın, materialların, texnologiyaların, təlimin və ya xidmətlərin, təyin olunmuş məqsədlərdən başqa, digər məqsədlərlə istifadə olunmasına icazə verməməlidir. Azərbaycan Respublikası Hökuməti, bu Sazişə müvafiq olaraq Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən təqdim edilmiş avadanlıqların, ehtiyatların, materialların, texnologiyanın, təlimin və ya xidmətlərin təhlükəsizliyinin təminatı üçün onun səlahiyyətində olan bütün səmərəli tədbirləri həyata keçirməli və onları konversiya və ya mənimsənilməyə qarşı mühafizə etməyə borcludur.

Maddə 8

1. Azərbaycan Respublikası Hökuməti Amerika Birləşmiş Ştatları Hökümətini və onun personalını, podratçılarını və podratçıların personalını məhkəmə proseduralarından azad edir və bu Saziş üzrə tədbirlərin həyata keçirilməsi ilə əlaqədar yaranan mülkiyyətə ziyan, Azərbaycanda hər hansı bir şəxsin vəfat etməsi və ya zədələnməsi münasibətdə, müqavilə üzrə iddialardan başqa, iddialar irəli sürmür.

2. Bu maddənin müddəaları Tərəflərin kompensasiya ödənilməsinə, onların milli qanunlarına müvafiq olaraq, maneə törətməməlidir.

Maddə 9

Amerika Birləşmiş Ştatları Hökümətinin bu Saziş üzrə fəaliyyəti müvafiq vəsaitlərin mövcudluğundan asılıdır.

Maddə 10

Amerika Birləşmiş Ştatları Hökümətinin xahişi ilə bu sazişlə bağlı fəaliyyətin həyata keçirilməsi üçün Azərbaycan ərazisində yerləşən Amerika

Birləşmiş Ştatları Hökümətinin hərbi və mülki əməkdaşlarına, 18 aprel 1961-ci il tarixli diplomatik münasibətlər haqqında Vyana Konvensiyasına müvafiq olaraq inzibati və texniki personala verilən imtiyaz və immunitetlər verilir.

Maddə 11

1. Amerika Birləşmiş Ştatları Hökuməti, onun personalı, podratçıları və podratçılar personalı, bu Saziş üzrə fəaliyyət ilə bağlı Azərbaycan ərazisində tutulan hər hansı vergilərin, gömrük rüsumlarının və yaxud bu tipli digər yığımların ödənilməsindən azad edilirlər.

2. Amerika Birləşmiş Ştatları Hökuməti, onun personalı, podratçıları və onların personalı bu Sazişin həyata keçirilməsi üçün zəruri olan istənilən avadanlığı, ehtiyatları, materialları, texnologiyanı, təlimi və ya xidmətləri Azərbaycana gətirib və Azərbaycandan çıxara bilər. Bu növlü idxal-ixrac lisenziyalaşdırmanın və ya digər məhdudiyyətlərin, Azərbaycan ərazisində tutulan gömrük rüsumların, vergilərin və istənilən digər yığımların predmeti olmamalıdır.

Maddə 12

Bu Sazişin həyata keçirilməsi məqsədilə, Tərəf, tikinti üzrə daxil olmaqla əşyaların və xidmətlərin əldə edilməsi üçün kontraktı təqdim etdiyi təqdirdə, belə kontraktlar bu tərəfin qanunlarına və qaydalarına uyğun olaraq təqdim edilməlidir. Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən və ya onun adından bu Sazişin həyata keçirilməsi məqsədilə əşyaların və xidmətlərin Azərbaycanda əldə olunması, Azərbaycan ərazisində tutulan hər hansı vergilərin qoyulması, gömrük rüsumları və ya bu tipli yığımların predmeti olmayacaqdır.

Maddə 13

Otuz gün əvvəl təqdim olunmuş yazılı sorğuya əsasən, Amerika Birləşmiş Ştatları Hökümətinin nümayəndələri Sazişin qüvvədə olduğu müddətində, və həmçinin müddətin qurtarmasından sonra üç il ərzində, hazırki Sazişə müvafiq olaraq Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən təqdim olunmuş istənilən avadanlıqların, ehtiyatların, materialların, təlimin və ya xidmətlərin istifadə edilməsi və onların yerləşmə və istifadə yerləri üzrə yoxlamalar aparmaq hüququna malik olacaqlar, və hazırki Sazişə müvafiq olaraq təqdim olunmuş materialların və ya xidmətlərin istifadəsinə aid olan bütün yazıların və ya sənədləşmələrin auditi və tədqiqatı hüququna malik olacaqlar.

Maddə 14

Bu Saziş onun qüvvəyə minməsi üçün tələb olunan bütün tətbiq edilən daxili prosedurların hər bir Tərəfin yerinə yetirilməsini təsdiq edən, Tərəflərin diplomatik notalarının mübadiləsi tarixindən qüvvəyə minəcək və yeddi il müddətində qüvvədə olacaqdır. Tərəflər arasında yazılı razılaşma yolu ilə bu Sazişə əlavələr edilə bilər və ya o uzadıla bilər, və bir Tərəfin sazişin ləğv olunması haqqında digər Tərəfdən bu haqda niyyəti barədə yazılı xəbərdarlığın alınmasından doxsan gün başa çatdıqdan sonra Saziş ləğv oluna bilər.

Bu Sazişin və ya onun həyata keçirilməsi üzrə sazişlərin qüvvəsinin dayandırılmasına baxmayaraq, Azərbaycan Respublikası Hökumətinin bu Sazişin 7-ci və 8-ci maddələrinə müvafiq olaraq ohdəliklərinin, Tərəflər arasında yazılı şəkildə digər razılaşmalar əldə olunmazsa, qeyri-müəyyən olaraq tətbiq edilməsi davam etdiriləcək.

Vaşinqtonda, Kolumbiya əyalətində bu 1999-cu ilin sentyabr ayının 28-ci günündə, iki nüsxədə, ingilis və Azərbaycan dillərində tərtib edilmiş, hər iki mətn eyni autentikdir.

Amerika Birləşmiş Ştatları
Hökuməti adından

Azərbaycan Respublikası
Hökuməti adından

PROTOCOL
AMENDING
THE AGREEMENT BETWEEN
THE GOVERNMENT OF THE UNITED STATES OF AMERICA
AND
THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN
CONCERNING COOPERATION
IN THE AREA OF COUNTERPROLIFERATION
OF WEAPONS OF MASS DESTRUCTION AND DEFENSE ACTIVITIES

The Government of the United States of America and the Government of the Republic of Azerbaijan, hereinafter referred to as the Parties,

In accordance with Article XIV of the Agreement between the Government of the United States of America and the Government of the Republic of Azerbaijan Concerning Cooperation in the Area of Counterproliferation of Weapons of Mass Destruction and Defense Activities, signed at Washington on September 28, 1999 (hereinafter referred to as the Agreement),

Have agreed as follows:

1. In the Azerbaijani text of the Agreement only, to replace the title of the Agreement with the following text:

   "Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlıq və müdafiə sahəsində tədbirlər haqqında Saziş"

2. In the Azerbaijani text of the Agreement only, to replace the phrase "Burada və irəlidə" in the first paragraph of the Preamble with the phrase "Bundan sonra".

3. In the Azerbaijani text of the Agreement only, to replace the second paragraph of the Preamble with the following text:

   "Kütləvi qırğın silahlarının, habelə, bu növ silahlara aid olan texnologiyalar,–materiallar və biliyin yayılmasının qarşısının alınması məqsədi ilə,"

4. To replace the third paragraph of the Preamble of the Agreement with the following text:

   "Desiring to prevent the unauthorized transfer and transportation of nuclear, biological, chemical and radiological weapons and related materials;"

5. To replace paragraph b of Article I of the Agreement with the following text:

   "b. Preventing unauthorized transfer and transportation of nuclear, biological, chemical and radiological weapons and related materials;"

6. In the Azerbaijani text of the Agreement only, to replace the second paragraph of Article III with the following text:

   "2. Bu Saziş və həyata keçirilmə üzrə digər saziş və razılaşmalar arasında hər hansı bir uyğunsuzluğun yarandığı təqdirdə, hazırkı Sazişin müddəaları üstünlük təşkil edəcək."

7. In the Azerbaijani text of the Agreement only, to replace Article IV with the following text:

   "Bu Sazişin təfsiri və ya həyata keçirilməsinə aid olan hər hansı fikir ayrılıqları və ya mübahisələr müstəsna şəkildə Tərəflər arasında məsləhətləşmələr vasitəsi ilə nizamlanacaq və hər hansı bir üçüncü tərəfin, məhkəmə və ya tribunalın baxılmasına verilməyəcəkdir."

8. In the Azerbaijani text of the Agreement only, to replace Article V with the following text:

   "Bu Sazişin şərtləri Amerika Birləşmiş Ştatlarının bu Saziş və ya həyata keçirilmə üzrə sazişlərə və yaxud razılaşmalara uyğun olaraq təqdim etdiyi bütün avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərə və bütün aidiyyəti tədbirlərə və personala şamil ediləcəkdir."

9. In the Azerbaijani text of the Agreement only, to replace the second paragraph of Article VI with the following text:

   "2. Bu Sazişə uyğun olaraq həyata keçirilən tədbirlərlə bağlı Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycan Respublikasında istifadə olunan təyyarə və gəmilər, müntəzəm kommersiya reyslərini həyata

keçirən təyyarələr və gəmilər istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində tutulan gömrük rüsumlarından, yerə enmə və dayanacaq üçün ödəmələrdən, liman ödənişlərindən, yığımlardan və istənilən digər rüsumlardan azad olunacaqdır. Bu Sazişə aid olan fəaliyyətlə əlaqədar Amerika Birləşmiş Ştatlarına məxsus və yaxud bu Sazişə aid olan tədbirlərlə əlaqədar istifadə olunan təyyarə və gəmilər Azərbaycan Respublikasında gömrük baxışından azad olunacaqdır."

10. In the Azerbaijani text of the Agreement only, to replace Article VII with the following text:

"Amerika Birləşmiş Ştatları Hökumətinin yazılı razılığını almadan, Azərbaycan Respublikası Hökuməti Amerika Birləşmiş Ştatları Hökumətinin bu Sazişə müvafiq olaraq təqdim etdiyi hər hansı avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərə aid olan mülkiyyət hüququnu və yaxud sahibliyi bu Saziş Tərəfinin əməkdaşı, işçisi və ya agentindən başqa, istənilən hüquqi şəxsə verməyəcək və bu avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərin, təyin olunmuş məqsədlərdən başqa, digər məqsədlərlə istifadə olunmasına icazə verməyəcək. Azərbaycan Respublikası Hökuməti, bu Sazişə müvafiq olaraq Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən təqdim edilmiş avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərin təhlükəsizliyinin təminatı üçün onun səlahiyyətində olan bütün lazımi tədbirləri həyata keçirəcək və onları mənimsənilmə və ya özününküləşdirməyə qarşı mühafizə edəcək."

11. In the Azerbaijani text of the Agreement only, to replace Article VIII with the following text:

"1. Azərbaycan Respublikası Hökuməti bu Saziş üzrə tədbirlərin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında yaranan mülkiyyətə ziyan, yaxud hər hansı bir şəxsin vəfat etməsi və ya zədələnməsi ilə əlaqədar, Amerika Birləşmiş Ştatları Hökumətini və onun personalını, podratçılarını və podratçıların personalını, müqavilə üzrə iddialar istisna olmaqla, məhkəmə proseduraları və iddialarına münasibətdə məsuliyyətdən azad edəcək.

2. Bu maddənin müddəaları Tərəflərin, onların milli qanunvericiliyinə müvafiq olaraq kompensasiya ödəməsinə maneə törətməyəcək."

12. To replace the first paragraph of Article XI of the Agreement with the following text:

"1. Subject to the provisions of Articles XII and XIII below, the Government of the United States of America, its personnel, contractors, and contractors' personnel shall not be liable, in connection with activities under this Agreement, to pay taxes, mandatory state social insurance payments, customs duties, or similar charges assessed within the territory of the Republic of Azerbaijan."

13. To insert a new third paragraph under Article XI of the Agreement as follows:

"3. In the event that a Party awards contracts for the acquisition of articles and services, including construction, to implement this Agreement, such contracts shall be awarded in accordance with the laws and regulations of that Party. Acquisition of articles and services in the Republic of Azerbaijan by or on behalf of the Government of the United States of America or its contractors in implementing this Agreement shall be subject to value added taxes (VAT) at a zero (0) percent rate."

14. To replace Article XII of the Agreement with the following text:

"1. The term "Contractor" as used in this Agreement means an entity that has been contracted by the implementing agency of the United States of America for the purpose of carrying out activities under this Agreement and an enterprise that has signed contracts or agreements directly with that entity for the purpose of carrying out activities under this Agreement.

2. A list of contractors shall be officially communicated in writing by the Executive Agent of the United States of America to the Executive Agent of the Republic of Azerbaijan.

3. The Executive Agent of the United States of America, when communicating the list of contractors to the Executive Agent of the Republic of Azerbaijan, shall, for the purpose of implementation of paragraph 3 of Article XI, additionally provide the following information for each contractor:

a. Contractor's legal address, taxpayer's identification number (TIN), or, in cases if it has no TIN in the Republic of Azerbaijan, the TIN or its analogue used in the country of residence;

b. period of activity under this Agreement;
c. cost of materials, equipment and services procured in the Republic of Azerbaijan for the purpose of implementing this Agreement; and
d. Azerbaijani translation of relevant agreements or contracts certified by the Executive Agent of the United States of America or implementing agencies."

15. To insert a new Article XIII in the Agreement as follows:

"1. Tax exemptions provided for in paragraph 1 of Article XI shall not apply to the following:
   a. Profit taxes to be paid by Azerbaijani companies under the legislation of the Republic of Azerbaijan;
   b. Income taxes to be paid by individuals who are citizens of the Republic of Azerbaijan under the legislation of the Republic of Azerbaijan.
   c. Mandatory state social insurance payments paid for individuals who are citizens of the Republic of Azerbaijan under the legislation of the Republic of Azerbaijan.

2. All issues relating to the taxes and mandatory state social insurance payments mentioned in paragraph 1 of this Article shall be regulated in accordance with the legislation of the Republic of Azerbaijan.

3. If, under the legislation of the Republic of Azerbaijan, it is required that taxes and mandatory state social insurance payments mentioned in paragraph 1 of this Article and taxes on income of third country companies or citizens be withheld at source of payment, then contractors shall be obliged to withhold these taxes and mandatory state social insurance payments and transfer the amount withheld to the budget of the Republic of Azerbaijan.

4. Issues of taxation of the income of individuals who are citizens of third countries and income and profits of third country companies shall be regulated in accordance with the legislation of the Republic of Azerbaijan and in accordance with relevant agreements concluded between the Republic of Azerbaijan and those third countries.

5. Issues of mandatory state social insurance payments by individuals who are citizens of third countries shall be regulated in accordance with the legislation of the Republic of Azerbaijan and in accordance

with relevant agreements concluded between the Republic of Azerbaijan and those third countries."

16. To renumber the existing Article XIII of the Agreement as Article XIV.

17. To insert a new Article XV in the Agreement as follows:

"Under this Agreement, no Republic of Azerbaijan state secret information or United States classified information shall be exchanged."

18. To renumber the existing Article XIV in the Agreement as Article XVI.

19. To replace in the first sentence of renumbered Article XVI in the Agreement the phrase "and shall remain in force for seven years" with the phrase "and shall remain in force for fourteen years."

20. Being an integral part of the Agreement this Protocol shall be provisionally applied from the date of signature and shall enter into force on the date of receipt through diplomatic channels of the last written notification of the Parties on the completion of all necessary internal legal procedures required for its entry into force.

DONE at Baku on this 29th day of December, 2011, in duplicate, in the English and Azerbaijani languages, all texts being equally authentic.

FOR THE GOVERNMENT OF THE UNITED STATES OF AMERICA

FOR THE GOVERNMENT OF THE REPUBLIC OF AZERBAIJAN

"Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında Saziş"də dəyişikliklər edilməsi barədə

PROTOKOL

Bundan sonra "Tərəflər" adlandırılacaq Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

1999-cu il 28 sentyabr tarixində Vaşinqton şəhərində imzalanmış "Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında Saziş"in (bundan sonra – Saziş) 14-cü maddəsinə uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Sazişin yalnız Azərbaycan dilində olan mətnində adı dəyişdirilərək aşağıdakı redaksiyada verilsin:

   "Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlıq və müdafiə sahəsində tədbirlər haqqında Saziş".

2. Sazişin yalnız Azərbaycan dilində olan mətnində preambula hissəsinin birinci bəndində "Burada və irəlidə" sözləri "Bundan sonra" sözləri ilə əvəz edilsin.

3. Sazişin yalnız Azərbaycan dilində olan mətnində preambula hissəsinin ikinci bəndi aşağıdakı redaksiyada verilsin:

   "Kütləvi qırğın silahlarının, habelə, bu növ silahlara aid olan texnologiyalar, materiallar və biliyin yayılmasının qarşısının alınması məqsədi ilə,".

4. Sazişin preambula hissəsinin üçüncü bəndi aşağıdakı redaksiyada verilsin:

   "nüvə, bioloji, kimyəvi və radioloji silahların və onlara aid olan materialların qeyri-qanuni transferi və daşınmasının qarşısının alınmasını arzu edərək,".

5. Sazişin 1-ci maddəsinin (b) bəndi aşağıdakı redaksiyada verilsin:

" (b) nüvə, bioloji, kimyəvi və radioloji silahların və onlara aid olan materialların qeyri-qanuni transferi və daşınmasının qarşısının alınması;".

6. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 3-cü maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Bu Saziş və həyata keçirilmə üzrə digər saziş və razılaşmalar arasında hər hansı bir uyğunsuzluğun yarandığı təqdirdə, hazırkı Sazişin müddəaları üstünlük təşkil edəcəkdir.".

7. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 4-cü maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Sazişin təfsiri və ya həyata keçirilməsinə aid olan hər hansı fikir ayrılıqları və ya mübahisələr müstəsna halda Tərəflər arasında məsləhətləşmələr vasitəsilə nizamlanacaq və hər hansı bir üçüncü tərəfin, məhkəmə və ya tribunalın baxılmasına verilməyəcəkdir.".

8. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 5-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Sazişin şərtləri Amerika Birləşmiş Ştatlarının bu Saziş və ya həyata keçirilmə üzrə sazişlərə və yaxud razılaşmalara uyğun olaraq təqdim etdiyi bütün avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərə və bütün aidiyyəti tədbirlərə və personala şamil ediləcəkdir.".

9. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 6-cı maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Bu Sazişə uyğun olaraq həyata keçirilən tədbirlərlə bağlı Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycan Respublikasında istifadə olunan təyyarə və gəmilər, müntəzəm kommersiya reyslərini həyata keçirən təyyarələr və gəmilər istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində tutulan gömrük rüsumlarından, yerəenmə və dayanacaq üçün ödəmələrdən, liman ödənişlərindən, yığımlardan və istənilən digər rüsumlardan azad ediləcəkdir. Bu Sazişə aid olan fəaliyyətlə əlaqədar Amerika Birləşmiş Ştatlarına məxsus və yaxud bu Sazişə aid olan tədbirlərlə əlaqədar istifadə olunan təyyarə və gəmilər Azərbaycan Respublikasında gömrük baxışından azad olunacaqdır.".

10. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 7-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Amerika Birləşmiş Ştatları Hökumətinin yazılı razılığını almadan, Azərbaycan Respublikası Hökuməti Amerika Birləşmiş Ştatları Hökumətinin bu Sazişə müvafiq olaraq təqdim etdiyi hər hansı avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərə aid olan mülkiyyət hüququnu və yaxud sahibliyini bu Saziş Tərəfinin əməkdaşı, işçisi və ya agentindən başqa, istənilən hüquqi şəxsə verməyəcək və bu avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərin təyin olunmuş məqsədlərdən başqa, digər məqsədlərlə istifadə olunmasına icazə verməyəcəkdir. Azərbaycan Respublikası Hökuməti bu Sazişə müvafiq olaraq Amerika Birləşmiş Ştatları Hökuməti tərəfindən təqdim edilmiş avadanlıq, ehtiyat, material, texnologiya, təlim və ya xidmətlərin təhlükəsizliyinin təminatı üçün onun səlahiyyətində olan bütün lazımi tədbirləri həyata keçirəcək və onları mənimsənilmə və ya özününküləşdirməyə qarşı mühafizə edəcəkdir.".

11. Sazişin yalnız Azərbaycan dilində olan mətninin 8-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Hökuməti bu Saziş üzrə tədbirlərin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında yaranan mülkiyyətə ziyan dəyməsi, yaxud hər hansı bir şəxsin vəfat etməsi və ya zədələnməsi ilə əlaqədar Amerika Birləşmiş Ştatları Hökumətini və onun personalını, podratçılarını və podratçıların personalını, müqavilə üzrə iddialar istisna olmaqla, məhkəmə prosedurları və iddialarına münasibətdə məsuliyyətdən azad edəcəkdir.

2. Bu maddənin müddəaları Tərəflərin, onların milli qanunvericiliyinə müvafiq olaraq kompensasiya ödəməsinə maneə törətməyəcəkdir.".

12. Sazişin 11-ci maddəsinin 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1. Sazişin 12-ci və 13-cü maddələrinin müddəalarından asılı olaraq, Amerika Birləşmiş Ştatları Hökuməti, onun personalı, podratçıları və podratçıların personalı bu Saziş üzrə fəaliyyətlə bağlı Azərbaycan Respublikasının ərazisində tutulan vergilərin, məcburi dövlət sosial sığorta haqlarının, gömrük rüsumlarının və yaxud bu tipli digər yığımların ödənilməsindən azad ediləcəkdir.".

13. Sazişin 11-ci maddəsinə aşağıdakı məzmunda 3-cü bənd əlavə edilsin:

"3. Bu Sazişin həyata keçirilməsi məqsədi ilə Tərəf əşyaların və tikinti də daxil olmaqla, xidmətlərin əldə edilməsi üçün müqavilələr təqdim etdiyi təqdirdə, belə müqavilələr bu Tərəfin qanun və qaydalarına uyğun olaraq təqdim edilməlidir. Amerika Birləşmiş Ştatları Hökuməti, onun podratçıları tərəfindən və ya onların adından bu Sazişin həyata keçirilməsi

məqsədi ilə Azərbaycan Respublikasında alınan əşyalar və xidmətlər əlavə dəyər vergisinə (ƏDV) sıfır (0) dərəcəsi ilə cəlb olunacaqdır.".

14. Sazişin 12-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"1. Bu Sazişdə istifadə olunan "Podratçı" termini Amerika Birləşmiş Ştatlarının icraçı dövlət qurumu tərəfindən bu Saziş əsasında fəaliyyətlərin həyata keçirilməsi üçün cəlb edilmiş təşkilatı və həmin fəaliyyətlərin həyata keçirilməsi məqsədi ilə birbaşa həmin təşkilatla müqavilə və ya saziş bağlamış müəssisəni bildirir.

2. Podratçıların siyahısı yazılı formada Amerika Birləşmiş Ştatlarının İcraçı Agenti tərəfindən Azərbaycan Respublikasının İcraçı Agentinə rəsmi qaydada bildiriləcəkdir.

3. Amerika Birləşmiş Ştatlarının İcraçı Agenti podratçıların siyahısını Azərbaycan Respublikasının İcraçı Agentinə təqdim etdiyi zaman, bu Sazişin 11-ci maddəsinin 3-cü bəndinin tətbiqi məqsədi ilə həmin siyahıya əlavə olaraq, hər bir podratçı üzrə aşağıdakı məlumatları da təqdim edəcəkdir:

(a) Podratçının hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) və ya Azərbaycan Respublikasında VÖEN-i olmadıqda, rezidenti olduğu dövlətdə VÖEN-i əvəz edən nömrə;

(b) bu Saziş əsasında həyata keçiriləcək fəaliyyətin müddəti;

(c) bu Sazişin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasında alınacaq material, avadanlıq və xidmətlərin dəyəri; və

(d) Amerika Birləşmiş Ştatlarının İcraçı Agenti və ya icraçı dövlət qurumları tərəfindən təsdiq edilmiş müvafiq saziş və ya müqavilələrin Azərbaycan dilinə tərcüməsi.".

15. Sazişə aşağıdakı məzmunda 13-cü maddə əlavə edilsin:

"1. 11-ci maddənin 1-ci bəndində nəzərdə tutulan vergidən azadolmalar aşağıdakılara tətbiq edilmir:

(a) Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan müəssisələri tərəfindən ödənilməli olan mənfəət vergilərinə;

(b) Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslər tərəfindən ödənilməli olan gəlir vergisinə;

(c) Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, ödənilən məcburi dövlət sosial sığorta haqlarına.

2. Bu maddənin 1-ci bəndində göstərilən vergilərə və məcburi dövlət sosial sığorta haqlarına aid olan bütün məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada tənzimlənəcəkdir.

3. Əgər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bu maddənin 1-ci bəndində göstərilən vergi və məcburi dövlət sosial sığorta haqlarının və üçüncü dövlətlərin müəssisələrinin və ya vətəndaşlarının gəlirlərindən vergilərin ödəniş mənbəyində tutulması tələb edilirsə, həmin vergilərin və məcburi dövlət sosial sığorta haqlarının tutularaq Azərbaycan Respublikasının büdcəsinə köçürülməsi podratçılar tərəfindən təmin ediləcəkdir.

4. Üçüncü dövlətlərin vətəndaşları olan fiziki şəxslərin gəlirlərinin və üçüncü dövlətlərin müəssisələrinin gəlir və mənfəətinin vergiyə cəlb edilməsinə dair məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikası ilə həmin üçüncü dövlətlər arasında bağlanmış aidiyyəti müqavilələrə müvafiq qaydada tənzimlənəcəkdir.

5. Üçüncü dövlətlərin vətəndaşları olan şəxslərin məcburi dövlət sosial sığortasına cəlb olunması Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikası ilə həmin üçüncü dövlətlər arasında bağlanmış aidiyyəti müqavilələrə müvafiq qaydada tənzimlənəcəkdir.".

16. Sazişin 13-cü maddəsi 14-cü maddə hesab edilsin.

17. Sazişə aşağıdakı məzmunda 15-ci maddə əlavə edilsin:

"Bu Sazişin fəaliyyəti çərçivəsində, Azərbaycan Respublikasının dövlət sirri olan məlumatı və Amerika Birləşmiş Ştatlarının məxfi məlumatı mübadilə edilməyəcəkdir.".

18. Sazişin 14-cü maddəsi 16-cı maddə hesab edilsin.

19. Sazişin yeni 16-cı maddəsinin birinci cümləsindəki "və yeddi il müddətində qüvvədə olacaqdır" sözləri "və on dörd il müddətində qüvvədə olacaqdır" sözləri ilə əvəz edilsin.

20. Sazişin ayrılmaz hissəsi olan bu Protokol imzalandığı tarixdən müvəqqəti olaraq tətbiq edilir və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Protokol Bakı şəhərində 2011-ci ilin 29 dekabr tarixində hər biri ingilis və Azərbaycan dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Amerika Birləşmiş Ştatları Hökuməti adından

Azərbaycan Respublikası Hökuməti adından